2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Rafiq Abbasovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 15 sentyabr 2024-cü il tarixli 91 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 16 sentyabr 2024-cü il

Mən, ekspert qrupunun üzvü Rafiq Abbasov 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilərdə 63 saylı Hacıqabul-Kürdəmir seçki dairəsi üzrə qeydə alınmış namizəd Vahid Qulaməli oğlu Qocayev namizəd kimi qeydə alınmasından imtinaya dair 63 saylı Hacıqabul-Kürdəmir seçki dairəsi dairə seçki komissiyasının (bundan sonra - dairə seçki komissiyası) 5 sentyabr 2024-cü il tarixli 33/103 saylı qərarından verdiyi 15 sentyabr 2024-cü il tarixli 91 saylı şikayətini araşdıraraq **m ü ə y y ə n  e t d i m:**

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 112-ci və 112-1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində fəaliyyət göstərən ekspert qrupunun üzvü kimi tərəfimdən nəzərdən keçirilmiş və müvafiq nəticəyə gəlinmişdir.

2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 63 saylı Hacıqabul-Kürdəmir seçki dairəsi üzrə qeydə alınmış namizəd Vahid Qulaməli oğlu Qocayev 2024-cü il sentyabrın 15-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) yazılı müraciət edərək həmin seçki dairəsi dairə seçki komissiyasının 5 sentyabr 2024-cü il tarixli 33/103 saylı Qərarını mübahisələndirmiş, adı çəkilən qərarın ləğv edilməsini, onun və müşahidəçilərin iştirakı ilə DSK-da ekspertiza təşkil edilməsini xahiş etmişdir.

Müraciət araşdırılarkən müəyyən olunmuşdur ki, V.Q.Qocayev 2024-cü il sentyabrın 5-də qanun pozuntularının baş verməsi iddiası ilə 63 saylı Hacıqabul-Kürdəmir seçki dairəsinin dairə seçki komissiyasına müraciət etmiş, bununla bağlı dairə seçki komissiyası 5 sentyabr 2024-cü il tarixli 33/103 saylı Qərarı ilə həmin müraciət şikayətvermə müddətinin ötürülməsi ilə daxil olduğundan, onu təqdim etmiş şəxsə geri göndərmişdir.

Seçki Məcəlləsinin 112.1-ci maddəsinə görə, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət edə bilər.

Seçki Məcəlləsinin 112-1.14.1-ci maddəsinə əsasən, şikayət qanunla müəyyən olunmuş qaydada və müddətdə, yəni qərardan, hərəkətin (hərəkətsizliyin) baş verməsindən və ya maraqlı tərəfin xəbərdar olmasından sonra 3 gün ərzində daxil olmalıdır.

Beləliklə, araşdırma nəticəsində müəyyən edilmişdir ki, dairə seçki komissiyası müraciətin şikayətvermə müddətinin ötürülməsi ilə daxil olduğundan, onu təqdim etmiş şəxsə geri göndərmək barədə qərar qəbul etməklə düzgün hüquqi nəticəyə gəlmişdir. Bu səbəbdən də V.Q.Qocayevin Mərkəzi Seçki Komissiyasına daxil olmuş 15 sentyabr 2024-cü il tarixli 91 saylı müraciəti əsassız olduğundan təmin edilməməli, dairə seçki komissiyasının 5 sentyabr 2024-cü il tarixli 33/103 saylı Qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda göstərilənlərə və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 40.2-ci, 100.11-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **r ə y ə g ə l d i m:**

1. 2024-cü il sentyabrın 1-də keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərdə 63 saylı Hacıqabul-Kürdəmir seçki dairəsi üzrə qeydə alınmış namizəd Vahid Qulaməli oğlu Qocayevin 15 sentyabr 2024-cü il tarixli 91 saylı müraciəti əsassız olduğundan təmin edilməməli, dairə seçki komissiyasının 5 sentyabr 2024-cü il tarixli 33/103 saylı Qərarı dəyişdirilmədən saxlanılmalıdır.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Rafiq Abbasov